**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№313/4** **31 oktyabr 2019-cu il**

**Auditor adı almaq üçün imtahanların proqramının təsdiq edilməsi barədə**

Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 4.3-cü bəndinə uyğun olaraq qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla Kadr hazırlığı şöbəsi (E.Behbudova) tərəfindən hazırlanmış "Auditor adı almaq üçün imtahanların proqramı"nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor adı almaq üçün imtahanların proqramı" təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının auditor adı almaq üçün İmtahan Komissiyasına (C.Həsənov) və Kadr hazırlığı şöbəsinə (E.Behbudova) tapşırılsın ki, auditor adı almaq üçün imtahanların təsdiq edilmiş bu proqram əsasında keçirilməsini təmin etmək məqsədilə əməli tədbirlər görsünlər.
3. Auditorlar Palatası Şurasının "Beynəlxalq Standartların tələblərinə uyğun olaraq auditor adı almaq üçün imtahan proqramının təkmilləşdirilməsi barədə" 2011-ci il 27 aprel tarixli 219/1 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərarın və "Auditor adı almaq üçün imtahanların proqramı"nın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**